# Elçin yaradıcılığında folklor qaynaqları

**Səadət Bayramova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: seadet19710214@gmail.com

**Annotasiya.** Müasir Azərbaycan nəsrinin görkəmli simalarından olan xalq yazıçısı Elçinin dərin məzmunlu və bədii cəhətdən zəngin olan yaradıcılığının diqqətçəkici cəhətlərindən biri də onun folklor qaynaqlarından istifadə məharətidir. O, istər əsərlərinin mövzu, süjet və obraz səciyyəsi, istərsə də koloritli yazı manerası və nəsr təhkiyəsi baxımından folklor ənənələrinə yaxından bağlı olan görkəmli nəsr ustasıdır. Bu baxımdan birbaşa folklora istinadən qələmə aldığı nağıl-hekayə, nağıl-povest, əfsanə-hekayə, dastan-roman nümunələri xüsusi dəyərə malikdir. Məqalədə bu qəbildən olan "Bülbülün nağılı", "Mahmud və Məryəm", "Ağ dəvə", "Edam hökmü" əsərləri folklordan bəhrələnmə örnəkləri kimi təhlilə cəlb olunmuşdur.
**Açar sözlər:** Elçin Əfəndiyev, folklor, nağıl, motiv, xalq ədəbiyyatı

**Məqalə tarixçəsi:** göndərilib – 12.09.2022; qəbul edilib – 23.09.2022

# The sources of folklore in Elchin's creativity

**Seadet Bayramova**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: seadet19710214@gmail.com

**Abstract.** Elchin is one of the outstanding representatives of the modern generation in Azerbaijan, his creativity is artistically rich and one of the most remarkable features of his creativity is the ability to use of folklore sources. He is an outstanding master of prose both in terms of the theme of the works and plot and image features and in his unique style of writing and plot narrative. The tale-story, tale-narrative, legend-story, dastan-novel that he wrote referring to folklore has a special value from this point of view. In the article the works such as "The Tale of a Nightingale", "Mahmud and Maryam", "White Camel" and "Death Penalty" is studied like use of folklore.
**Keywords:** Elchin Efendiyev, folklore, fairy tale, motive, folk literature

**Article history:** received – 12.09.2022; accepted − 23.09.2022

## Giriş / *Introduction*

Azərbaycan ədəbiyyatında özünəməxsus üslubu və zəngin düşüncə tərzi ilə seçilən Elçinin yaradıcılığı müxtəlif tədqiqatların problem mövzusuna çevrilmişdir. Ədəbi tənqidin yanaşmalarında yazıçının təkcə bədii yaradıcılığı deyil, həm də ədəbiyyatşünas kimi elmi-nəzəri görüşləri, ədəbi prosesə münasibəti də kifayət qədər özünə yer alır. Hətta bir sıra araşdırmalarda yazıçı və folklor müstəvisində istedadlı sənətkarın əsərləri təhlil edilir. Ancaq təəssüf ki, Elçin yaradıcılığında nağıl motivlərindən bəhrələnmə elə də böyük maraq doğurmamışdır.

## Əsas hissə / *Main Part*

Məlum olduğu kimi, bütün sənətkarlar xalqın zəngin şifahi xalq ədəbiyyatından faydalanmışlar. Elçin də bunlardan biri kimi folklordan bəhrələnmiş və bir-birindən maraqlı əsərlər yaratmışdır. Onu da əlavə edək ki, Elçin yaradıcılığını yazıçı və folklor müstəvisində nəzərdən keçirdikdə motiv, süjet, hadisə səviyyəsində olduqca maraqlı məsələlər ortaya çıxır. Həm də daha ciddi araşdırmaları aktuallaşdırır. İlk öncə onu deyək ki, xalqın zəngin yaradıcılığına olan ardıcıl müraciət təsadüfi deyil, yazıçı məqsədindən irəli gəlir, daha doğrusu, yazıçı idealına xidmət edir. "Bir görüşün tarixcəsi", "Toyuğun diri qalması", "Poçt şöbəsində xəyal", "Dolça", "Ağ dəvə", "Mahmud və Məryəm", "Ölüm hökmü" və s. əsərləri buna nümunədir. Bunun nəticəsidir ki, "...Elçinin əsərləri – hekayə, povest, roman, publisistika, ədəbi qeydlər və hətta, elmi məqalələri, tədqiqatları işıq üzü gördüyü vaxtdan dərhal sonra, öncə öz vətənində, eyni zamanda digər yaxın və uzaq ölkələrdə sürətlə yayılmış, sevilə-sevilə oxunmuş, daxili bir tələbatla neçə-neçə oxucu nəsli arasında əldən-ələ, zövqdən-zövqə ötürülərək davamlı bədii dəyərə malik olduğunu təsdiqləmişdir.

İndinin özündə də aradan yüz, yaxud min il ötməsini gözləmədən demək olar ki, onun yaradıcılığı, onun araya-ərsəyə gətirdiyi ədəbi sərvət zamanın sınağından çıxmışdır" [2, s.4]. Bu sınaqdan çıxmanın, zamanın ciddi tələblərinə davam gətirmənin ən başlıca və əsas məsələlərindən biri məhz ənənəyə söykənmə, xalq ədəbiyyatının imkanlarından yaradıcı şəkildə bəhrələnmədir. Çünki onun bütün əsərləri bu və ya digər dərəcədə öz qaynağını folklordan götürür. Hətta, bəzən əsərin adına qədər gəlib çıxır. Məsələn, "Bülbülün nağılı", "Mahmud və Məryəm" və s. Ona görə də Elçin yaradıcılığında diqqəti cəlb edən problemlərdən biri nağıl-hekayə, nağıl-roman məsələsinin araşdırılmasıdır. "Nağıllar yazıçılara həm xalq həyatını, həm də dilin şəhdi-şübhəsini, həm də əhvalat uydurmaq sənətkarlığını öyrənməyə kömək edən ən qüvvətli janrdır" [3, s.227].

Klassik ədəbiyyatın, eləcə də son dövr yaradıcı mühitin ardıcıl olaraq nağıllara müraciəti məhz bunun nəticəsidir. Yazıçının "Bülbülün nağılı" adlı maraqlı bir hekayəsi var. Orada bülbülün vətən, yurd sevgisi özünün ifadəsini tapır. Əsərin məzmunundan aydınlaşır ki, zəngin bir tacir yaz günlərinin birində dərvişin əlində ayaqlarından zəncirlə bağlanmış bülbülü görür. Həmin vaxt bülbül dünyanın ən qəmli nəğməsini ötürdü. Tacir dərvişin kəşkülünə bir neçə dəfə on qızıl atır və bülbülün ayağındakı zənciri qırıb onu öz bağına gətirir, qızıldan böyük bir qəfəs düzəltdirərək onu qəfəsə salır. "Sarı bülbül o böyük qızıl qəfəsin içində, o güllü-çiçəkli şəffaf bağçada, o yeddi fəvvarəli sərinlikdə, o müşk-ənbər ətrində səhər-axşam oxumağa başladı, amma bülbül həmişə yanıqlı ötdü və onun ötdüyü bu nəğmələr səhər-axşam dünyanın dərdindən, qəmindən xəbər verdi, o kiçik sarı varlıq hər tərəfə o qədər dərd, qəm səpələdi ki, elə bil bu bağçanın gülləri, çiçəkləri yayın istisindən, payızın çiskinlərindən saralıb solmadı, bülbülün bu nəğmələrindən saralıb soldu.

O, başqa bir bülbül tapdırıb qəfəsə saldırdı ki, sarı bülbül tək qalmasın, kar eləmədi, qəfəsi daha da böyütdürdü, genişləndirdi, kar eləmədi, axırda, günlərin bir günündə bütün işini-gücünü atıb ilxısının gözü olan göydəmir ürgəni mindi və çapıb bağçaya girdi, qızıl qəfəsin ağzını açdı, sarı bülbülü qəfəsdən buraxdı və göydəmir ürgəni bülbülün ardınca çapmağa başladı, tacirliyə qurşanmış bir yeniyetmə də onu tək buraxmadı, onunla yanaşı çapdı.

Sarı bülbül dağlar aşdı, dərələr keçdi, çaylarda çimib, bulaqlarda su içdi, az getdi, çox getdi, dərə-təpə düz getdi, axırda gəlib köksü gözəl o dağlardakı meşəyə çatdı və meşədəki qoca bir palıd ağacının oyuğunda köhnə yuvaya girdi; sarı bülbül o qədər uçmuşdu ki, tamam taqətsizdi, amma güclə başını qaldırıb meşəyə baxdı və bu dəm meşəyə gün dəydi... və bütün gücünü toplayıb oxumağa başladı.

Köksü gözəl o dağlardakı meşədə o dəm sarı bülbül dünyanın ən cəh-cəhli nəğməsini oxudu və bu nəğmə dünyanın yaxşı-yaxşı işlərindən xəbər verdi" [2, s.110]. Bu hekayə bütünlükdə xalq hikmətinə hesablanmış, xalq arasında yaşayan məlum-məşhur bir əhvalat-hekayəni təzədən mühit və şərait kontekstində canlandırmaq məqsədindən yaranmışdır. Azərbaycan xalqının tarixində xarı bülbülün Qum şəhərinə aparılması kimi məşhur hadisə də vardır. Ancaq onun orada yaşaması mümkün olmamışdır. Və xarı bülbülün ora getməsi də təsadüfi deyildi. Elçinin "Bülbülün nağılı" hekayəsində də bu tendensiya bütün tərəfləri ilə görünür. Lakin onun ehtiva etdiyi mahiyyət za-

man və məkan baxımından yeni səciyyə daşıyır. Yəni bu nağıl özlüyündə keyfiyyət yeniləşmələri ilə əhəmiyyət kəsb edir. Müəllifin məram və məqsədi də budur. Yazıçı hansısa hekayə, əsər yaratmaq məqsədindən çox-çox qabaq fikrin ifadəsi, çatdırılması üçün nağıla, xalqın tarixi yaddaşında olanlara müraciət edir. Mühitin, zamanın problemlərini açıb ortaya qoyur. Məhz "bülbülə qızıl qəfəsdən kol dibi xoş olar" qənaəti bir tarix, həqiqət və reallıq kimi görünür. Burada bülbülün azadlıq üçün çırpınması, qəmli nəğmələrini oxuması ilə siyasi mühitlərin, imperiyaların xalqları və insanları əsarətdə, sıxıntıda saxlaması arasında bağlantılar vardır. Bu xalq məsəllərinə, atalar sözlərinə, bayatılara, əfsanə, rəvayət, nağıl, dastan örnəklərinə qədər gedib çıxır. Bülbülün öz yuvasında böyük sevinclə son nəğməsini oxuması onun istibdada, zülmə, zülmkarlara etiraz səsi, üsyanı idi. Bülbül həmin üsyanı edirdi.

Elçin bir yazıçı kimi vətən, yurd sevgisini qaldırır, onu yasaq edənlərə, fironluq düşüncəsində olanlara tacir və bülbül timsalında nümunə göstərir. Sarı bülbülün qızıl qəfəsdən qoca ağac koğuşundakı yuvasını üstün tutması bütünlükdə insanlığa, dünyaya nümunədir. Xalqın zəngin yaradıcılığında, folklor simvolikasında milli-mənəvi dəyərlərin işarələnməsi bütünlükdə yazılı ədəbiyyatın uğurlu inkişafına, axtarışlarına istiqamət verir. Bu mənada şair və yazıçıların vaxtaşırı hansısa məsələdə qənaətlərini yazıya gətirmək üçün xalq yaradıcılığı ən yaxşı mənbə rolunu oynayır.

Azərbaycan xalqının bir-birindən maraqlı nağılları ("Dərzi şagirdi Əhməd", "Həsən Qaranın nağılı", "İlyasın nağılı", "Baftaçı Şah Abbas", "Padşah və dəmirçi", "Yeddi nar çubuğu", "Yoxsul qocaynan vəzir", "Padşahla qoca", "Padşahla pinəçi" və s.) vardır. Yazıçı və şairlərimiz həmin nağılların motivlərindən istifadə etməklə maraqlı əsərlər yaratmışlar. Elçin də "Bülbülün nağılı" hekayəsini xalq arasında yaşayan eyniadlı nağıldan bəhrələnməklə yazmışdır. "Təzə-təzə dil açan körpələrdən tutmuş saç-saqqalı ağarmış qocalara qədər hamının diqqətini öz cazibə orbitinə çəkən "biri vardı, biri yoxdu..." möcüzəsi əsrdən-əsrə, nəsildən-nəslə keçmiş, dildən-dilə, yaddaşdan-yaddaşa köçə-köçə milyardlarla insan ömrünü yaşayıb zəmanəmizə çatdırmışdır" [1, s.5].

Burada diqqəti cəlb edən əsas məsələ yazıçının bu nağıla müraciət etməsinin səbəb və məqsədinin müəyyənləşməsidir. Maraq doğuran digər məsələ eyni adlı nağıla sədaqət göstərib eyniyyətin saxlanmasıdır. Bunun aydınlaşması üçün həm xalq ədəbiyyatındakı "Bülbülün nağılı"nı, həm də Elçinin eyni adlı hekayəsini müqayisələrlə təhlil etmək, onun mahiyyətində olanları açmaq lazımdır. Əlbəttə, Elçin kimi istedadlı, həm də böyük həyat yolu keçmiş yazıçının belə bir nağıla müraciət etməsi məqsədli idi. Sırf yazıçı istəyinə, qayəsinə uyğunluğun hadisəsi kimi maraq doğurur.

Keçən əsrin 60-80-ci illərində nağıla müraciətin mahiyyətində mühitin ifadəsi, problemlərinin qabardılması istəyi bir məqsəd kimi ədəbiyyatı izləyir. Ona görə də nağıl simvolları, nağıl təhkiyəsi, struktur və ifadə elementləri ən uğurlu vasitə kimi diqqət mərkəzində dayanır. Bütünlükdə, fikrin ifadəsi hadisəsinə çevrilir. "Lakonizm bədii dilin kamilliyi, kəsəridir. Elçinin qələmi sözlərlə möcüzə yaratmaq iqtidarında olsa da, yazıçı lakonizmi başlıca yaradıcılıq prinsiplərindən biri olaraq çoxdan müəyyənləşdirmişdir. Bu mənada onu kamil bir hekayəçi adlandırmaq yerinə düşərdi. Həqiqətən Elçin Azərbaycan ədəbiyyatına bir-birindən gözəl hekayələr bəxş edib" [2, s.5]. "Balaca qırmızı çiçək", "Küləyin, çinarın və balaca qaranquş balasının hekayəti", "Bülbülün nağılı" da onun klassik hekayələr səviyyəsində duran əsərlərindəndir. Onu da əlavə edək ki, Elçinin povest və romanlarında da bu, bir xətt kimi davamlı olaraq özünü göstərir. "Mahmud və Məryəm" onun klassik nümunəsidir. Bir məsələni də qeyd edək ki, bu roman Elçinin ilk genişhəcmli əsəridir. "Mahmud və Məryəm" 1982-ci ildə yazılmışdır. "60-cı illərin sonunda yaradıcılığa başlayan, 80-ci illərdə püxtələşən yazıçının ədəbi axtarışlarının qanunauyğun yekunu" kimi vurğulanan "Mahmud və Məryəm", "Ağ dəvə", "Ölüm hökmü" bütövlükdə ədəbiyyatımızın uğurları səviyyəsində duran nümunələrdəndir. Çox doğru olaraq vurğulanır ki, "Mahmud və Məryəm" romanların içində ən zərifi, ən kövrəyidir.

Lirizm və mifizm, tarixi olmuşlar, uzaq və yaxın keçmişlə faktoloji keçmişlə insan talelәri hiss olunmadan, təbii bir ehmallıqla birləşərək bədii mətləbə, yazıçının fəlsəfəsinə yol açır. Əlbəttə, "Mahmud və Məryəm" eşq haqqındadır. Ən azı ona görə ki, romanın əsasında bütün Şərqdə "Əsli və Kərəm" adı ilə dillərdə gəzib dolaşan, dastan gecələrini bəzəyən kədərli bir əhvalat daya-

nır. “Əsli və Kərəm” eşq haqqında xalqın yaratdığı romandır. Ona görə ki, burada xalqın bədii təfəkkürü, fəlsəfi-idraki yozumu peşəkar romanlarda olduğu qədər mükəmməldir” [2, s.7].

## Nəticə / *Conclusion*

Elçin qələminin məhsulu olan “Mahmud və Məryəm” də bütün struktur komponentləri müstəvisində bir dastanı xatırladır. Yazıçının bu mövzuya müraciətinin əsasında məhz insan və mühit səviyyəsində cəmiyyətin özünə münasibəti dayanır. Bütün bunlar və bu kimi müraciətlər Elçin yaradıcılığının nağıl-hekayə, nağıl-povest, nağıl-roman müstəvisində qaynaqlarıdır.

## Ədəbiyyat / *References*

1. Azərbaycan ədəbiyyatı inciləri. Nağıllar. Bakı: Yazıçı, 1985.
2. Elçin. Seçilmiş əsərləri. Bakı: Avrasiya-Press, 2005.
3. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Proqres, 2012.

## Фольклорные источники творчества Эльчина

**Саадет Байрамова**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: seadet19710214@gmail.com

**Резюме.** Одной из замечательных сторон глубоко содержательного и богатого в художественном отношении творчества народного писателя Эльчина, одного из видных деятелей современной азербайджанской прозы, является его умение использовать фольклорные ресурсы. Он выдающийся мастер прозы, тесно связанный с фольклорными традициями как по тематике, сюжету и образной характеристике своих произведений, так и по колоритной и прозаической манере письма. В связи с этим особую ценность имеют образцы сказки-рассказа, сказки-повести, легенды-повести, былины-романа, которые он пишет со ссылкой непосредственно на фольклор. Произведения этого вида “Сказка о Соловье”, “Махмуд и Марьям”, “Белый верблюд”, “Смертный приговор” были привлечены к анализу как образцы использования фольклора.
**Ключевые слова:** Эльчин Эфендиев, фольклор, сказка, мотив, народная литература